**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İQTİSADİ SUBYEKTLƏRİN RƏQABƏTƏ DAVAMLILIĞININ TƏMİN OLUNMASINDA İNNOVASİYALARIN TƏTBİQİ PERSPEKTİVLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Günel Gündüz qızı Sultanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Texnologiya Universitetinin "İdarəetmə" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Pəri Əmirəhməd qızı Həsənova**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Anar Əli oğlu Əzizov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Namiq Əlövsət oğlu Şalbuzov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Sevda Ağababa qızı Bədəlova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya iqtisadiyyatında baş verən dalğalanmalar şəraitində müxtəlif iqtisadi fəaliyyət sahələrinin və subyektlərin rəqabət qabiliyyətliliyi əsasən yeni texnologiyalarda, elm sahələrində və istehsalın təşkili formalarında özünü büruzə verən elmi-texniki tərəqqinin nailiyyətləri ilə müəyyən edilir. Bu baxımdan rəqabət üstünlükləri, iqtisadi sistemin innovativ potensialına əsaslanan rəqabət qabiliyyətinin və iqtisadi artımın təmin edilməsi üçün ən mühüm amillərindən biri kimi özünü göstərir. Hazırda, iqtisadiyyatın innovativ inkişaf yoluna istiqamətlənməsi, uzunmüddətli perspektivdə iqtisadi subyektlərin rəqabətə davamlılığını təmin etmək üçün mühüm strategiya olaraq qəbul edilir. İnnovativ potensialın gücləndirilməsi, innovasiyaların inkişafı və tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi iqtisadiyyatın strukturunun səmərəliliyini, onun davamlılığını və sabitliyini təmin etməyə imkan verir. Ona görə innovasiya sistemlərinin formalaşdırılmasına, iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin innovativ potensialının möhkəmləndirilməsi üçün ehtiyatların müəyyənləşdirilməsinə daim ehtiyac yaranır.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının dünya birliyinə inteqrasiya olunduğu müasir dövrdə, iqtisadi subyektlərin rəqabətə davamlığının artırılmasının əsası kimi innovasiya fəaliyyəti özünəməxsus rola malikdir. Belə şəraitdə bütün istehsal dövrü ərzində innovasiyalardan səmərəli istifadə etmək son dərəcə vacibdir. İqtisadiyyatda innovativ münasibətlərin formalaşması institusional mühitin transformasiyası ilə bilavasitə bağlıdır. İnnovativ və texnoloji inkişafı genişmiqyaslı dövlət dəstəyi ilə həyata keçirmək mümkündür. İnnovasiya fəaliyyəti iqtisadiyyatın rəqabət qabiliyyətinin artımını təmin edən və onun sahələrinin rəqabət üstünlüklərini artıran əsas amillərdən biri kimi iqtisadi subyektlərin rəqabətə davamlılığının real strateji resursuna çevrilir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”inin 5 istiqamətindən biri məhz *“dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat”ın*[1] formalaşdırılmasıdır.

---

[1] “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.

“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda “*dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə”* müəyyən edilmiş, *“rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi”* həyata keçirilməklə *“inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısı alınması və bütün bazarlarda rəqabət gücləndirilməsi”*[2] məsələləri öz əksini tapmışdır.

Müasir şəraitdə innovativ fəaliyyətin inkişafı iqtisadiyyatın və onun subyektlərinin rəqabət üstünlüklərinin artmasına töhfə verməklə səmərəli institusional mühitin formalaşdırılmasında böyük rol oynayır. Səmərəli institusional mühit iqtisadi proseslərin inkişafına xidmət edən, eləcə də fəaliyyət sahələri və subyektlərin qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsi mexanizmlərini nəzərdə tutur. İnstitusional sistemin bir sıra xüsusiyyətləri iqtisadiyyatın innovativ inkişafını stimullaşdıran, onun rəqabət qabiliyyətinin artırılmasına birbaşa təsir göstərən yeni institutların yaradılmasının zəruriliyini şərtləndirir. Bu baxımdan innovasiyaların yaradılması ilə rəqabətə davamlı sahələrin inkişaf etdirilməsi, təbii olaraq elmi fəaliyyətin effektivliyinə əsaslanır. Fundamental elm sahələrinin qlobal məkana daxil olması iqtisadiyyatın modernləşdirilməsi və şaxələndirilməsi ilə rəqabətə davamlı sahələrin inkişaf etdirilməsi istiqamətində dövlətin üzərinə bir sıra vəzifələr qoyur. “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda qeyd edildiyi kimi, *“dövlət elmi innovasiya fəaliyyətini həyata keçirən bütün müəssisə və təşkilatlar üçün bərabər şərait yaradır və onların fəaliyyətini stimullaşdırır”,* dövlət tərəfindən *“rəqabətqabiliyyətli, yüksək texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılmasında iştirak etməklə, zəmanətli satış bazarlarının təmin edilməsi və xarici bazarlara çıxışının həvəsləndirilməsi və himayə edilməsi”*[3].

Göstərilənlərdən aydın olur ki, innovasiyaların stimullaşdırılması nəticə etibarilə, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına,

---

[2] “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyun tarixli Sərəncamı.

[3] “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu. 14 iyun 2016-cı il.

həmçinin subyektlərin rəqabətə davamlığının möhkəmləndirilməsinə müsbət təsir göstərir. Ümumi şəkildə iqtisadiyyatın rəqabət qabiliyyətliliyini hər bir iqtisadi fəaliyyət sahəsinin daxili və xarici şəraitdəki dəyişikliklərə həssaslıqla reaksiya vermək qabiliyyəti kimi qəbul etmək olar. İqtisadiyyatın rəqabət qabiliyyətliliyi böyük ölçüdə subyektlərin elmə və innovasiyalara əsaslanan rəqabətə davamlılıq səviyyəsindən asılıdır. İqtisadi subyektlərin fəaliyyətinə daxili və xarici amillərin təsiri, onların rəqabət mühitinə uyğunlaşma xüsusiyyətlərini nəzərə alır. Rəqabət qabiliyyətinin bu xüsusiyyəti subyektlərin itirilmiş rəqabət üstünlüklərini kompensasiya etmək qabiliyyətini ehtiva edir və onun ən mühüm komponenti innovasiya qabiliyyəti hesab edilir. Beləliklə, innovasiya fəaliyyətinin, iqtisadiyyatın rəqabət qabiliyyətinin və subyektlərin rəqabətə davamlığının qarşılıqlı şəkildə öyrənilməsi rəqabətin struktur aspektinin nəzərə alınması ilə xüsusi aktuallıq kəsb edir. Bu isə rəqabət üstünlüklərinin artırılmasına innovativ fəaliyyətin təsirinin qiymətləndirilməsinin yüksək elmi və praktiki əhəmiyyət kəsb etdiyini deməyə əsas verir və dissertasiya mövzusunun aktuallığını müəyyən edir.

İqtisadi subyektlərin rəqabətə davamlığının təmin olunmasında innovasiyaların tətbiqi problemləri ilə məşğul olan respublika iqtisadçıları arasında aşağıdakıları qeyd etmək olar: Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, A.F.Musayev, A.D.Hüseynova, İ.H.İbrahimov, P.Ə.Həsənova, R.Ə.Balayev, A.E.Quliyeva, E.Ə.İbrahimov, T.N.Əliyev, A.F.Abbasov, M.M.Hüseynov, M.C.Hüseynov, S.İ.Vəliyeva, N.C.Qafarov, E.B.Məmmədova, Q.N.Manafov, İ.H.Səlimov, A.H.Tağıyev, S.A.Rəhimov, F.H.Qasımov, Z.M.Nəcəfov və başqaları.

İnnovasiya fəaliyyətinin inkişafı probleminin iqtisadi aspektləri və onun iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına təsiri bir çox dünya iqtisadçılarının da diqqət mərkəzində olmuşdur. İnnovasiya fəaliyyətinin nəzəri və metodoloji əsasları və onun iqtisadi sistemin rəqabət üstünlüklərinin artırılması ilə əlaqəsi məsələləri A.Marşall, A.Smit, E. Minko, M.Porter, P.Samuelson, F.Hayek, Y.Şumpeter, V.Obremçuk, Y.Rubin, A.Qudzinski, N.Abayeva, İ.Dyukov, R.Fatxutdinov və başqaları tərəfindən geniş şəkildə araşdırılmışdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, yerli və xarici ölkə alimlərinin araşdırmalarında innovativ münasibətlərin iqtisadi sistemin rəqabət üstünlüklərinin formalaşmasına təsiri problemlərinə böyük diqqət yetirməsinə baxmayaraq, iqtisadi subyektlərin rəqabətə davamlığının möhkəmləndirilməsi ilə bağlı müəyyən məsələlər kifayət qədər tədqiq edilməmişdir. Eləcə də innovasiya fəaliyyəti ilə subyektlərin rəqabətə davamlılığı arasında qarşılıqlı əlaqənin əsas istiqamətlərinin müəyyən edilməsi məhdud şəkildə araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti Azərbaycan iqtisadiyyatının sahələri və bu sahələrdə fəaliyyət göstərən subyektlər müəyyən edilmişdir. Tədqiqatın predmetini iqtisadi subyektlərin rəqabətə davamlılığının təmin olunması və innovasiyalarin tətbiqi ilə bağlı iqtisadi münasibətlər, qanunauyğunluqlar, əlaqələr və asılılıqlar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi iqtisadi subyektlərin rəqabətliliyinin qiymətləndirilməsinin nəzəri-metodoloji aspektlərini ümumiləşdirməkdən, iqtisadi subyektlərin rəqabətliliyinin əsas determinantlarınını müəyyənəşdirməkdən, inkişaf səviyyəsini və rəqabətə davamlığının təhlil etməklə onların rəqabətə davamlılığının yüksəldilməsi istiqamətlərini, bu prosesdə innovasiyaların tətbiqi perspektivlərini aşkara çıxarmaqdan, bununla bağlı təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Məqsədlərə uyğun olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- rəqabətlilik və rəqabətə davamlılıqla bağlı elmi müddəaların araşdırılması;
- iqtisadi subyektlərin rəqabətliliyinin əsas determinantlarının və ona təsir edən amillərin şərh edilməsi;
- iqtisadi subyektlərin rəqabətlililik səviyyəsinin qiymətləndirilməsi metodlarının xarakterizə edilməsi;
- iqtisadi subyektlərin rəqabətə davamlılığının təmin olunmasında innovasiyaların rolunun müəyyən edilməsi;
- Azərbaycan Respublikasında iqtisadi subyektlərin inkişaf səviyyəsinin və rəqabətə davamlılıq göstəricilərinin araşdırılması;
- Azərbaycanda iqtisadi subyektlərin fəaliyyətində innovasiyalardan istifadə vəziyyətinin təhlili və

qiymətləndirilməsi;
- Azərbaycanda iqtisadi subyektlərin rəqabətə davamlığının yüksəldilməsi istiqamətlərinin və innovasiyalardan istifadə imkanlarının müəyyən edilməsi;
- rəqabət qabiliyyətli iqtisadi subyektlərə dövlət dəstəyinin göstərilməsi istiqamətləri.

**Tədqiqat metodları.** Dissertasiya işində əsas iqtisadi göstəricilərin təhlili, həmçinin həmin göstəricilərə təsir edən amillərin qiymətləndirilməsi məqsədilə analiz, qruplaşdırma, analitik təhlil, iqtisadi-statistik, iqtisadi-riyazi, müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- rəqabətlilik və rəqabətə davamlılıq anlayışları ilə bağlı elmi-nəzəri baxışların və konseptual müddəaların ümumiləşdirilməsinə ehtiyac var;
- rəqabətliliyin əsas determinantlarının iqtisadi subyektlərin fəaliyyətinə təsirinin əsaslandırılması zəruridir;
- rəqabətlilik səviyyəsinin qiymətləndirilməsi metodları əsasında iqtisadi subyektlərin rəqabətə davamlılığında innovasiyaların rolunun əsaslandırılması günün tələbidir;
- iqtisadi subyektlərin fəaliyyətinin təhlilinə əsaslanaraq rəqabətə davamlılıq göstəricilərinin və ona təsir edən amillərin nəticələrinin qiymətləndirilməsi praktiki baxımdan xüsusi əhəmiyyət kəsb edir;
- innovasiyalardan istifadənin iqtisadi subyektlərin fəaliyyətinə təsirinin qiymətləndirilməsi zəruridir;
- iqtisadi subyektlərin əsas göstəricilərinin proqnozlaşdırılması ilə rəqabətə davamlılığının yüksəldilməsi istiqamətlərinin uzlaşdırılmasına ehtiyac var;
- innovasiyalara təsir edən amillərin qiymətləndirilməsi əsasında iqtisadi subyektlərin rəqabətə davamlılığının yüksəldilməsində innovasiyalardan istifadə üzrə prioritetlərin əsaslandırılması vacibdir;
- iqtisadi subyektlərin rəqabət qabiliyyətliliyinin yüksəldilməsini nəzərdə tutan dövlət dəstəyi tədbirlərinin əsas istiqamətlərinin

əsaslandırılması hazırda aktual məsələlərdəndir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

- ✓ rəqabətlilik və rəqabətə davamlılıq anlayışlarına konseptual baxışların müqayisəli qiymətləndirilməsinə əsaslanaraq bu göstəricilərin məzmununu xarakterizə edən nəzəri və metodoloji müddəalar sistemləşdirilmişdir;
- ✓ rəqabətliliyin əsas determinantlarının iqtisadi subyektlərin fəaliyyətinə təsiri qiymətləndirilməklə rəqabətə davamlılığın təmin olunmasında innovasiyaların tətbiqinin zəruriliyi əsaslandırılmışdır;
- ✓ rəqabətə davamlılıq göstəricilərini formalaşdıran amillərin, o cümlədən innovasiyalardan istifadənin iqtisadi subyektlərin fəaliyyətinə kəmiyyət təsirinin nəticələri iqtisadi-riyazi üsullardan istifadə olunmaqla müəyyən edilmiş, həmin amillərlə subyektlərin fəaliyyəti arasında asılılıq müəyyən edilmişdir;
- ✓ müxtəlif sferalarda fəaliyyət göstərən iqtisadi subyektlərin əsas göstəricilərinin müqayisəsi və proqnozlaşdırılmasına əsaslanaraq rəqabətə davamlığının yüksəldilməsi istiqamətləri müəyyən edilmiş və əsaslandırılmışdır;
- ✓ iqtisadi subyektlərin rəqabətə davamlığının yüksəldilməsində innovasiyalardan istifadə üzrə mövcud ehtiyatlar və prioritetlər aşkar edilmişdir;
- ✓ rəqabət qabiliyyətli iqtisadi subyektlərə dövlət dəstəyi tədbirlərinin əsas istiqamətləri beynəlxalq təcrübədən istifadə etməklə öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində əldə olunan nəticələrin nəzəri əhəmiyyəti iqtisadi subyektlərin rəqabətə davamlığının təmin olunmasında innovasiyalardan istifadə və dövlət dəstəyi mexanizminin müasirləşdirilməsi ilə bağlı elmi yanaşmaların, habelə rəqabətliliyinin əsas determinantlarının və rəqabətlilik səviyyəsinin qiymətləndirilməsi metodologiyası ilə bağlı elmi aspektlərin ümumiləşdirilməsində öz əksini tapır. Tədqiqat işinin əsas elmi müddəaları və nəticələri, müxtəlif iqtisadi sferalarda fəaliyyət göstərən subyektlərin rəqabətə davamlığının təmin

olunmasına, eləcə də bu prosesdə innovasiyalardan istifadəyə dair araşdırmalar üçün nəzəri və metodoloji əsas rolunu oynaya bilər.

Dissertasiya işinin praktiki əhəmiyyəti özünü, iqtisadi subyektlərin rəqabətə davamlığının təmin olunmasında innovasiyalardan istifadə və bu istiqamətdə dövlət dəstəyi ilə bağlı elmi konsepsiyaların ayrı-ayrı müddəalarının nəticə və tövsiyələrin hazırlanmasında və təcrübədə istifadə imkanlarının formalaşmasında təsdiq edir. İrəli sürülən təkliflərdən rəqabətə davamlı iqtisadi subyektlərin formalaşdırılmasında və onların fəaliyyət mexanizminin təkmilləşdirilməsində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 6 məqalədə (3-ü xaricdə olmaqla) və 4 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Rəqabət qabiliyyətli iqtisadi subyektlərə dövlət dəstəyinin prioritetləri" (Bakı, 2023), "The role of advanced technologies in ensuring the competitiveness of enterprises" (Ganja, 2023), "Критерии оценки потенциала конкурентоспособности экономических субъектов" (Москва, 2024), "Влияние цифровизации на устойчивость конкурентного преимущества компаний" (Ганджа, 2023) adlı tezisləri göstərmək olar. Tədqiqat zamanı müəllifin həmçinin "İqtisadi subyektlərin rəqabətə davamlılığının təmin olunması mexanizmi" (Gəncə, 2021), "Особенности внедрения инноваций в конкурентной устойчивости экономических субъектов" (Москва 2022), "İqtisadi subyektlərin rəqabətliliyi, onun yüksəldilməsinin zəruriliyi" (Bakı, 2023), "Azərbaycanda bank sektorunun rəqabət qabiliyyətliliyinin əsas parametrləri və innovasiyalardan asılılığı" (Bakı, 2024), "Конкуренция как механизм обеспечения устойчивости экономических субъектов" (Москва, 2025), "Analysis and assessment of competitiveness of entrepreneurial structures in Azerbaijan" (Belgorod, 2025) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Texnologiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (13527 işarə), I fəsil (69514 işarə), II fəsil (49891 işarə), III fəsil (61175 işarə), nəticə (7544 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (21672 işarə) üzrə ümumi həcm 239140 işarədir. Dissertasiya cədvəllər, qrafiklər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 201651 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları səciyyələndirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yenilikləri, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin **"İqtisadi subyektlərin rəqabətliliyinin qiymətləndirilməsinin nəzəri və metodoloji əsasları"** adlı birinci fəslində rəqabətlilik və rəqabətə davamlılıq anlayışlarının mahiyyəti müqayisəli şəkildə araşdırılır, iqtisadi subyektlərin rəqabətliliyinin əsas determinantları, iqtisadi subyektlərin rəqabətlililik səviyyəsinin qiymətləndirilməsi metodları və iqtisadi subyektlərin rəqabətə davamlığının təmin olunmasında innovasiyaların rolu məsələləri şərh edilmişdir.

Makroiqtisadi siyasətdə rəqabətqabiliyyətlilik və rəqabətə davamlılıq müqayisəli üstünlüklərə əsaslanmaqla bazarların qarşılıqlı əlaqəsi mexanizmində iqtisadi subyektlərin səmərəli fəaliyyətinin əsasını təşkil edir. Müasir şəraitdə subyektlər artan rəqabət təzyiqi təhlükəsi ilə rəqabətə müqavimət göstərmək üçün rəqabət qabiliyyətini saxlamaqda və rəqabətədavamlılıq prinsipləri əsasında fəaliyyətlərini formalaşdırmaqda maraqlıdırlar. Bu, rəqabətqabiliyyətlilik və rəqabətə davamlılıq mexanizmlərinin mahiyyətinin öyrənilməsinin və əsas komponentlərinin müqayisəli təhlilinin iqtisadi subyektlərin fəaliyyətindəki yerini və rolunu müəyyən edir. İqtisadi ədəbiyyatda rəqabətqabiliyyətlilik anlayışı aid olduğu obyektin xarakterindən asılı olaraq müxtəlif istiqamətlərdə

şərh olunur: əmtəə və müəssisələr səviyyəsində mikrorəqabət qabiliyyəti, ayrı-ayrı sahələr səviyyəsində mezorəqabət qabiliyyəti, ölkə iqtisadiyyatı səviyyəsində - makrorəqabət qabiliyyəti.

Rəqabət üstünlüklərinin formalaşması rəqabətqabiliyyətlilik və rəqabətə davamlılıq anlayışlarının ortaya çıxmasını şərtləndirmişdir. Rəqabətqabiliyyətlilik bir və ya oxşar istehsalçılar arasında məhsul və ya xidmətlərə görə yaranan münasibətlərin xüsusi dinamik prosesi hesab edilir. Rəqabətqabiliyyətlilik əsasən iki elementlə müəyyən edilir: məmnunluq dərəcəsini xarakterizə edən məhsul (xidmətlər) və ya əmtəə kütləsinə tələbat; istehsalın və idarəetmənin səmərəliliyi. Bir qayda olaraq, bu elementlər bir-birlə sıx bağlı olub, əksər hallarda biri digərini müəyyən edir.

Rəqabətqabiliyyətliliyə və rəqabətə davamlılığa elmi yanaşmalar əsasında rəqabət qabiliyyətini və rəqabətə davamlılığı formalaşdıran əsas amilləri, kateqoriyaları və göstəriciləri ümumiləşdirmək mümkün olur. Bu isə iqtisadi subyektlərin rəqabətə davamlığının və rəqabətliliyinin möhkəmləndirilməsi üzrə əsas determinantları müəyyən etməyə imkan verir.

Bazar iqtisadiyyatı şəraitində subyektlərin fəaliyyətinin səmərəliliyi və iqtisadi inkişafı əsasən rəqabət qanunlarından, onun forma və təzahürlərinin reallaşması vəziyyətindən, subyektlərin rəqabətə nə dərəcədə hazır olmasından bilavasitə asılıdır. Bu baxımdan iqtisadi subyektlər tərəfindən rəqabət mühitinə və rəqabət qabiliyyətinə təsir edən amillərin diqqətdə saxlanılması ən vacib məsələlərdən hesab edilir. Rəqabətqabiliyyətlilik ümumilikdə rəqabətin universal mexanizmini əks etdirir və bazar iqtisadiyyatının başlıca kateqoriyası kimi həm məhsul səviyyəsində, həm də iqtisadi subyektlər, sahələr, ayrı-ayrı regionlar və ölkə səviyyəsində müəyyən edilir. Rəqabətin qeyd edilən müxtəlif səviyyələri öz metod və göstəricilərinə görə fərqlənir. Bu baxımdan iqtisadi sistemin hansı komponentlərinin rəqabət qabiliyyətinə xas olduğunu, hansı hallarda rəqabət qabiliyyətini nəzərə almağın məqsədəuyğunluğunu, subyektlərin rəqabət qabiliyyəti ilə bağlı problemlərin həlli üsulları və vasitələri hansılarının nəzərə alınmasının vacibliyini müəyyən etmək ən mühüm məsələlərdir.

Rəqabətqabiliyyətlilik amilləri uyğunlaşdığı şərtlərin məcmusunu

əks etdirir və uyğunlaşma prosesinin mümkünlüyünü və effektivliyini müəyyən edir. Bu öz növəsində rəqabət üstünlüklərinin əsas determinantlarının qarşılıqlı əlaqəsi ilə müəyyən edilir. İqtisadi subyektlərin uzunmüddətli rəqabət üstünlüklərinin formalaşması amilləri və determinantları çoxşaxəli olduğundan rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi də mürəkkəbliyi ilə diqqəti cəlb edir. Rəqabət qabiliyyətinin qiymətləndirilməsi konkret bir subyektin inkişafı prosesində onun əmtəələrinin və ya xidmətlərinin istehlak tələbatını ödəmə dərəcəsinə, həmçinin istehsal fəaliyyətinin səmərəliliyinə görə rəqiblərdən fərqlərini müəyyən etməyə imkan verir. Rəqabət qabiliyyətinin qiymətləndirilməsi subyektlərin işgüzar fəaliyyətini xarakterizə edən bir sıra göstəricilərin hesablanması və təhlilinə əsaslanır. Subyektinin rəqabət qabiliyyətini qiymətləndirilməsi məqsədilə müqayisə obyektlərinin seçilməsinə ehtiyac var və həmin obyektlər müqayisənin etibarlılığı üçün müəyyən parametrlərə malik olmalıdırlar.

Müasir texnoloji inkişaf şəraitində iqtisadi subyektlərin rəqabət üstünlükləri əldə etməsi aktuallaşmaqdadır. Əldə edilmiş yekdilliklərlə fəaliyyət miqyasından və bazarı əhatə etməsindən asılı olmayaraq, subyektlərin rəqabət qabiliyyəti innovasiyaların tətbiqinin genişləndirilməsini davamlı olaraq önə çəkir. Ona görə dövlətlətin iqtisadi siyasətinin əsas vəzifələrindən biri məhz, müxtəlif sahələrdə istifadə olunan texnologiyaların və istehsal olunan məhsulların innovativ inkişafının təmin edilməsinə yönəldilmiş tədbirlərin hazırlanması və davamlı olaraq təkmilləşdirilməsi hesab olunur. İnnovativ inkişaf, iqtisadi artımın və əhalinin yüksək keyfiyyətli məhsul və xidmətlərə tələbatının ödənilməsinin əsasını təşkil edir. Bu baxımdan iqtisadi subyektləri innovativ fəaliyyətlə məşğul olmaları onların rəqabət üstünlükləri əldə etməsini təmin edir, mövqelərinin güclənməsinə və genişlənməsinə töhfə verir, bazar payının yüksəlməsinə zəmin yaradır.

Dissertasiya işinin **“İqtisadi fəaliyyət sahələrinin inkişaf səviyyəsinin və subyektlərin rəqabətə davamlığının təhlili”** adlanan ikinci fəslində iqtisadi fəaliyyət sahələrinin inkişaf səviyyəsinin təhlili aparılır, İqtisadi fəaliyyət sahələri və subyektlərin rəqabətə davamlılıq göstəriciləri və iqtisadi subyektlərin rəqabət

fəaliyyətində innovasiyalardan istifadəyə təsir edən amillər qiymətləndirilir.

İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən subyektlərin dayanıqlı inkişafı maraqlı tərəflərlə qarşılıqlı əlaqələrdən, müxtəlif istehsal sahələrinə investisiyaların cəlb edilməsi səviyyəsindən, innovativ texnologiyalardan istifadə vəziyyətindən bilavasitə asılıdır. İqtisadi fəaliyyət sahələrində subyektlər üçün stabil inkişafa xidmət edən maraqlı tərəflərlə qarşılıqlı əlaqə daim diqqət mərkəzində olan məsələdir.

İqtisadiyyatın yüksək texnologiyalı inkişaf mərhələsinə keçməsi ilə müşayət olunan mütərəqqi innovativ inkişaf, subyektlərin fəaliyyətini əks etdirən müvafiq göstəricilərdə də özünü büruzə verir. Təcrübədə müxtəlif subyektlərin fəaliyyətin nəticələri maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri ilə müqayisəli şəkildə təhlil edilir. Araşdırmalara əsaslanaraq demək olar ki, təsərrüfat subyektlərinin fəaliyyəti onu dəstəkləyən mexanizmləri nəzərə almağı önə çəkir. Nəticə etibarı ilə hər hansı bir subyektin fəaliyyətinin sabitliyi ilə onun dəyişkənliyi arasında əlaqəni müəyyən etmək əsas məsələlərdən biri kimi qiymətləndirilə bilər. Beləliklə, iqtisadi subyektlərin fəaliyyətinin tədqiqi çərçivəsində müxtəlif amillərin təsirini nəzərə almaq zərurətə çevrilir. Bu baxımdan iqtisadi fəaliyyət növləri üzrə ümumi məhsulun təhlili göstərir ki, 2023-cü ildə mədənçıxarma sənayesi üzrə xidmətlərin göstərilməsi sahəsində 24,9 faiz azalma istisna olmaqla qalan digər sahələrdə artım müşahidə edilmişdir. Belə ki, müqayisə olunan dövrdə kənd təsərrüfatının ümumi məhsulu 55,8 faiz, sənayenin ümumi məhsulu 43,2 faiz, mədənçıxarma sənayesində 37,3 faiz, emal sənayesində 56,3 faiz elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sənayesində 56,1 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesində 80,5 faiz artmışdır (cədvəl 1).

İqtisadi subyektlər iqtisadiyyatın müxtəlif sferalarının daxilində formalaşmış makro və mikromühit sistemində fəaliyyət göstərdiyindən onların rəqabətə davamlılığı, bütövlükdə iqtisadiyyatın və onun sahələrinin rəqabət qabiliyyətindən asılı olur. Bu onunla əlaqəlidir ki, rəqabət qabiliyyəti, yüksək iqtisadi göstəricilərin əldə edilməsinin əsas şərtlərindəndir.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə ümumi məhsulun dəyəri, faktiki qiymətlərlə, milyon manat**

| Göstəricilər | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2019-cu illə müqayisədə 2023-cü ildə, faizlə |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı | 7836,7 | 8428,9 | 9163,4 | 10984,2 | 12210,6 | 155,8 |
| Bütün sənaye | 46999,2 | 37269,9 | 55229,1 | 86383,4 | 67296,0 | 143,2 |
| Mədənçıxarma sənayesi | 32857,5 | 22836,3 | 36222,4 | 64745,3 | 45117,5 | 137,3 |
| Emal sənayesi | 11793,8 | 11848,3 | 15887,0 | 18116,4 | 18431,2 | 156,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 2011,6 | 2253,2 | 2672,1 | 3016,3 | 3140,4 | 156,1 |
| Su təchizatı, tullantıların təmizlənməsi və email | 336,3 | 332,1 | 447,6 | 505,4 | 606,9 | 180,5 |

*Mənbə: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*[4]

Rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsinin müvafiq üsulları subyektlərin rəqabətqabiliyyətliliyin idarə edilməsi üzrə səmərəli təşkilati-iqtisadi tədbirlər həyata keçirilməsini tələb edir. Qeyd edilənləri nəzərə alaraq, müvafiq metodologiyalar əsasında sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin müqayisəli təhlilinə nəzər salaq.

Sahibkarlıq subyektlərinin fəaliyyətinin səmərəliliyi rəqabət üstünlükləri yaratmaqla, onların qarşıya qoyulan məqsəd və vəzifələrə nail olmasını təmin etmək bacarığı kimi qiymətləndirilir. Müasir iqtisadi şəraitdə səmərəliliyin kəmiyyət və keyfiyyət meyarları ilə sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliliyi arasında birbaşa

[4] https://www.stat.gov.az/source/industry/az/009.xls

əlaqə mövcuddur. Bu çərçivədə istehsal funksiyalarının qurulması ilə bağlı mövcud metodoloji yanaşmaya əsaslanmaqla sahibkarlıq subyektlərinin rəqəbatqabiliyyətli fəaliyyətinə təsir edən amillərin, onların fəaliyyətləri nəticəsində əldə olunan əlavə dəyərə təsirinin korrelyasiya-reqressiya qiymətləndirilməsini aparaq.

Məlumdur ki, sahibkarlıqla məşğul olan subyektlərinn və işçilərin sayı, eləcə də əmək haqqının səviyyəsi əldə olunan əlavə dəyərə əhəmiyyətli dərəcədə təsir göstərir. Qeyd edilənləri nəzərə alaraq rəqabət qabiliyyətinin formalaşmasında mühüm rol oynayan amillərin sahibkarlıq fəaliyyətindən əldə olunan əlavə dəyərin həcminə təsirini müəyyən etmək olar. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2019-2023-cü illər üzrə rəsmi məlumatları əsasında Gretl tətbiqi proqram paketindən istifadə etməklə sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyər və ona təsir edən amillərin reqressiya təhlili aparaq (cədvəl 2).

**Cədvəl 2**

**Azərbaycanda sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyər və ona təsir edən göstəricilərin dinamikası**

| İllər | Yaradılmış əlavə dəyər, mln man (Y) | Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayı ($X_1$) | İşçilərin sayı, min nəfər ($X_2$) | Orta aylıq nominal əmək haqqı, man ($X_3$) |
|---|---|---|---|---|
| **2019** | 11071.7 | 271304 | 332.2 | 531.0 |
| **2020** | 10941.0 | 316370 | 348.7 | 612.3 |
| **2021** | 13956.1 | 355906 | 357 | 632.2 |
| **2022** | 17170.4 | 377842 | 370 | 707.9 |
| **2023** | 20087.1 | 401149 | 390 | 765.8 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları*[5]

Gretl proqramına əsasən əldə edilən nəticələr və onların interpretasiyasına nəzər salaq. Sərbəst həddlər a = −0.00373455, b = 260.282, c = −18.9737, asılı dəyişən d = −65330.5 olduğundan Azərbaycanda sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyərin fəaliyyətdə olan sahibkarlıq subyektlərinin

[5] https://www.stat.gov.az/

sayından, işçilərin sayından və orta aylıq nominal əmək haqqından asılılığını ifadə edən reqressiya tənliyini almış oluruq. Əldə edilən nəticələrin nəzərə alınması şərtilə dövlət büdcəsinin gəlirləri və ona təsir edən amillər arasındakı xətti funksional asılılığı aşağıdakı reqressiya tənliyi ilə ifadə etmək olar:

$$Y = -65330.5 - 0.00373455X1 + 260.282X2 - 18.9737X3 \quad R2 = 0.919228$$

$$(t)\ (-0.7232)\ (-0.04074)\ (0.5902)\ (-0.1694)\ DW = 2.420688$$

Göründüyü kimi səbəb amilləri və nəticə amilini əks etdirən sərbəst həddin və asılı dəyişənlərin əmsalları onların standart səhvlərindən əhəmiyyətli dərəcədə böyükdür. Bu isə alınmış modelin statistik əhəmiyyətliliyini xarakterizə edir.

Cədvəl 3-ə daxil olan göstəricilər arasındakı korrelyasiya asılılığına əsasən belə nəticəyə gəlmək olar ki, tədqiq olunan dövr üzrə Azərbaycanda fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayının və nominal əmək haqının bir vahid artması, müvafiq olaraq yaradılmış əlavə dəyərin −0.00373455və −18.9737 vahid azalmasına, işçilərin sayının bir vahid artması isə yaradılmış əlavə dəyərin 260.282 vahid artmasına səbəb olacaqdır.

**Cədvəl 3**

**Çoxamilli xətti reqressiya modeli**

Model 1: OLS, using observations 2019-2023 (T = 5)
Dependent variable: Y

| | Coefficient | Std. Error | t-ratio | p-value |
|---|---|---|---|---|
| const | −65330.5 | 90334.9 | −0.7232 | 0.6014 |
| X1 | −0.00373455 | 0.0916678 | −0.04074 | 0.9741 |
| X2 | 260.282 | 440.990 | 0.5902 | 0.6606 |
| X3 | −18.9737 | 111.997 | −0.1694 | 0.8932 |

| | | | |
|---|---|---|---|
| Mean dependent var | 14645.26 | S.D. dependent var | 3967.265 |
| Sum squared resid | 5085153 | S.E. of regression | 2255.028 |
| R-squared | 0.919228 | Adjusted R-squared | 0.676911 |
| F(3, 1) | 3.793502 | P-value(F) | 0.356928 |
| Log-likelihood | −41.67569 | Akaike criterion | 91.35137 |
| Schwarz criterion | 89.78913 | Hannan-Quinn | 87.15845 |
| rho | −0.314252 | Durbin-Watson | 2.420688 |

*Mənbə: Gretl proqramından istifadə edərək müəllif tərəfindən hesablanmışdır.*

Hesablamalara nəzər yetirsək görə bilərik ki, asılı dəyişənlə sərbəst dəyişənlər arasında statistik əhəmiyyətli əlaqə müşahidə olunur. Statistik əhəmiyyətli əlaqə müşahidə olunmadıqda, bunun əsas səbəbi bəzi dəyişənlərin digər dəyişənlərin münasibətinə təsir etməsidir. Modeldə bu problemin adı heteroskedastiklik (dispersiyanın dəyişməsi) adlanır. Bu problemi modeldə həll etmək üçün ən zəif əlaqəli dəyişənləri modeldən çıxartmaq lazımdır. Nəticədə aldığımız modeli cədvəl 3-də göstərmişik. Bu nəticənin adekvatlığını müəyyən etmək üçün verilmiş əmsalların statistik əhəmiyyətliliyi yoxlanılmalıdır. Bunun üçün aşağıdakı hipotezi (fərziyyəni) yoxlamaq lazımdır:

$$\begin{cases} H_0: \beta_n = 0 \\ H_A: \beta_n \neq 0 \end{cases}$$

Burada:

H0 -sıfır hipotezi;

HA-alternativ hipotez;

βn-modeldəki sərbəst dəyişən.

Sıfır hipotezi sərbəst dəyişənlə asılı dəyişən arasında heç bir əlaqə mövcud deyil fikrini təsdiqləyir. Alternativ hipotez sıfır hipotezin əksidir və əlaqə var fikrini təsdiqləyir. Yəni, p-qiyməti 0.10-dan ən uzaq olan dəyişənləri modeldən çıxardırıq. Çünki bu dəyişənlər üçün sıfır hipotezi təsdiqlənir. Modeldə p-qiyməti 0.10-dən aşağı olan dəyişənlər üçün sıfır hipotezi inkar olunur. Yəni asılı dəyişənlə sərbəst dəyişənlər arasında əhəmiyyətli əlaqə var deməkdir. Bu dəyişənlər modeldə qalır.

Cədvəl 4-də Breusch-Pagan testinin nəticələri göstərilib. Bu nəticələrə əsasən p-qiyməti 0.59-dur və 0.10-dan böyük olduğuna görə sıfır hipotezi qəbul olunur. Yəni bu modeldə heteroskedastiklik mövcud deyil. Significance F ~ 0.356928 olduğundan, $p < 0,05$ şərtinə əsasən reqressiya modeli qiymətlidir.

**Cədvəl 4**

**Breusch-Pagan testi**

| |
|---|
| Breusch-Pagan test for heteroskedasticity<br>OLS, using observations 2019-2023 (T = 5)<br>Test statistic: LM = 1.870948,<br>with p-value = P(Chi-square(3) > 1.870948) = 0.599619 |

*Mənbə: Gretl proqramından istifadə edərək müəllif tərəfindən hesablanmışdır*

Tədqiq olunan dövr üzrə göstəricilər arasındakı korrelyasiya əmsalı $r = \sqrt{R^2} = \sqrt{0.676911}$ =0,8227 olduğundan, Çeddok şkalasında r = 0.7-0.9 olmasına əsasən Azərbaycanda sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyər ilə fəaliyyətdə olan sahibkarlıq subyektlərinin sayı, işçilərin sayı və orta aylıq nominal əmək haqqı yüksək korrelyasiya asılılığı vardır. Gretl proqramının nəticəsinə görə determinasiya əmsalının R2= 0.919228 olması isə o deməkdir ki, müvafiq reqressiya tənliyi 91,9% dispersiya nəticə göstəricisi ilə, 8,1%-i isə modelə daxil olmayan digər amillərin təsiri hesabına izah edilir. Bu isə reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və dövlət büdcəsi gəlirlərinin həcminin daha çox hissəsinin modelə daxil olan amillərin təsiri ilə izah edilməsini göstərir.

$$Y = -65330.5 - 0.00373455X1 + 260.282X2 - 18.9737X3$$

Alınmış tənlik əsasında sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyərin reqressiya modeli üzrə səviyyəsini müəyyən edək (qrafik 1).




**Qrafik 1. Sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyərin faktiki və reqressiya modeli üzrə səviyyəsi, mln manatla**

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları əsasında MS Office Excel proqramından istifadə etməklə müəllif tərəfindən hesablanmışdır.*

Göründüyü kimi, yaradılmış əlavə dəyərin faktiki və reqressiya modeli üzrə səviyyəsi araşdırmanın aparıldığı illər üzrə fərqli istiqamətlərdə dəyişmişdir. Belə ki, faktiki yaradılmış əlavə dəyərin məbləği 2018, 2019, 2022 və 2023-cü illərdə reqressiya modeli üzrə

yaradıla bilən əlavə dəyərin məbləğinin artım tempini qabaqlayır. Əks vəziyyət, yəni reqressiya modeli üzrə əldə olunan əlavə dəyərin həcminin faktiki əlavə dəyərin həcmi ilə müqayisədə artımı 2020 və 2021-ci illərə təsadüf edir. Bunun əsas səbəbini 2020 və 2021-ci illərdə dünyada və Azərbaycanda Koronavirusun (Covid-19) yayılması, onun iqtisadiyyatın demək olar ki, hər bir sahəsinə mənfi təsiri ilə əlaqələndirmək olar.

Qeyd edildiyi kimi, subyektlərin rəqabət qabiliyyəti bir sıra amillərdən asılıdır və bir sıra meyarlardan istifadə etməklə qiymətləndirilir. Bu baxımdan, rəqabətqabiliyyətlilik meyarını qiymətləndirmələr üçün əsas olan keyfiyyət və kəmiyyət xarakteristikası kimi qəbul etmək olar. Məlumdur ki, keyfiyyət amili sahibkarlıq subyektlərinin rəqabət potensialına əhəmiyyətli dərəcədə təsir edir. Lakin onun hesablanmasında müəyyən çətinliklər mövcuddur. Ona görə sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin əsasən kəmiyyətcə qiymətləndirilməsinə üsütünlük verilir. Araşdırma məqsədilə istifadə olunan amillərin və sahibkarlıq fəaliyyətindən əldə olunan əlavə dəyərin təhlili göstərdi ki, onların dinamikasında 2019-2023-cü illərdə davamlı olaraq artım baş vermişdir. Belə ki, sahibkarlıq subyektlərinin sayında 2019-cu illə müqayisədə 2023-cü ildə 47,9%, sahibkarlıq fəaliyyəti ilə məşğul olan işçilərin sayı 17,4%, orta aylıq nominal əmək haqqı 44,2%, yaradılmış əlavə dəyər 81,4% artım qeydə alınmışdır.

Sahibkarlıq subyektlərinin sayının, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların və orta aylıq nominal əmək haqqının yaradılmış əlavə dəyərə təsirinin qiymətləndirilməsi əsasında məlum olur ki, bu amillərin yaradılmış əlavə dəyərə təsiri 91,9% təşkil edir, 8,1% isə nəzərə alınmayan digər amillərin payına düşür. Sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində yaradılmış əlavə dəyərin faktiki və reqressiya modeli üzrə səviyyəsinin müqayisəsi göstərir ki, faktiki və mümkün göstəricilər arasında kəskin fərq mövcud deyil. Bu, sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlı mövcud olan digər resurs və ehtiyatlardan istifadə edilməsinin zəruriliyini önə çəkir.

İstənilən halda rəqabət qabiliyyətinin qiymətləndirilməsinin məqsədi subyektlərin bazarlardakı mövqeyini müəyyən etmək

baxımından əhəmiyyətlidir. Bu onunla əlaqələndirilir ki, rəqabət qabiliyyətlilik probleminin həlli zamanı, bazar iqtisadiyyatı şəraitində subyektlər arasında rəqabət məhsul rəqabəti formasını alır. Deməli, müəyyən məhsul bazarında rəqabət qabiliyyəti, birbaşa olaraq subyektin rəqabətə davamlığının səviyyəsini şərtləndirir. Bu, rəqabətə daha davamlı olan subyektlərin böyük əksəriyyətinin bazarda rəqabət qabiliyyətli məhsullarla təmsil olunduğunu təsdiq edir. Təbii ki, istehlakçılar arasında tələbat olmayan məhsullar istehsal edən subyektlərin uğurlu nəticələr əldə etməsi faktiki olaraq mümkün deyil.

İqtisadi subyektlərin fəaliyyətində innovasiyanın əsas elementlərinə istehsal vasitələri, təşkilati inkişaf, texnoloji proseslər, insan potensialı, istehsal olunan məhsullar, məhsulların keyfiyyəti və s. daxildir. Qeyd edilənlər nəzərə alınmaqla subyektlərin innovativ inkişafını reallaşdırmaq üçün istehsal və satış fəaliyyətində, maliyyə və investisiya resurslarının bölüşdürülməsində və marketinq siyasətinin həyata keçirilməsində yeni yanaşmalara üstünlük vermək vacibdir. Bunlar, istehlakçı ilə istehsalçının maraqları arasında tarazlığın qorunması, innovativ məhsulun həm bazarın, həm də subyektin özünün inkişaf tələblərinə cavab verməsi, innovasiya fəaliyyətinin davamlı olaraq həyata keçirilməsi kimi mühüm prinsiplərə əsaslanmalıdır.

Disssertasiya işinin **“İqtisadi subyektlərin rəqabətə davamlığının yüksəldilməsi istiqamətləri və innovasiyaların tətbiqi perspektivləri”** adlanan üçüncü fəslində iqtisadi subyektlərin rəqabətə davamlığının yüksəldilməsi istiqamətləri, iqtisadi subyektlərin rəqabətə davamlığının yüksəldilməsində innovasiyalardan istifadə və rəqabət qabiliyyətli iqtisadi subyektlərə dövlət dəstəyinin prioritetləri öz əksini tapır.

İqtisadiyyatın, onun sahələrinin və subyektlərinin rəqabətə davamlığının təmin edilməsi dövlətin iqtisadi siyasətində əsas yerlərdən birini tutur. Bu baxımdan rəqiblər üzərində rəqabət üstünlüyü yaratmaq və iqtisadiyyatın rəqabətqabiliyyətliliyini təmin emək dövlətin iqtisadi fəaliyyətinin strateji istiqamətlərindən hesab edilir. Rəqabət qabiliyyətinin artırılması onun iyerarxiyasının bütün səviyyələri - məhsullar, subyektlər, sahələr, regionlar və ölkə üçün

xarakterikdir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın əsas həlqələrindən biri kimi subyektlərin rəqabətə davamlığının yüksəldilməsi xüsusi əhəmiyyət kəsb edir. Rəqabətə davamlığının ilk növbədə, rəqabət qabiliyyətli məhsul istehsalı ilə bağlı olduğunu nəzərə alsaq, bu istiqamətdə müəyyənedicisi amil kimi istehsal qabiliyyətini göstərmək olar. İqtisadi subyektlərin istehsal qabiliyyəti rəqabətqabiliyyətli məhsullar yaratmaq və onların bazara çıxarılmasını təmin etmək vəzifələrinin yerinə yetirilməsinin əsas şərtidir.

Rəqabət qabiliyyətinin artırılması istiqamətlərindən biri olan məhsulun, işin və ya xidmətin satış həcminin artırılması özlüyündə istənilən nəticəni verə bilməz, çünki xərclərin səviyyəsi, mənfəəti məbləği kimi mühüm göstəriciləri bu prosesdə nəzərə almadan müsbət nəticələrdən danışmaq olmaz. Təbiidir ki, istehsal prosesini təşkil edərkən və məhsul həcmini planlaşdırarkən istehsal fəaliyyətini təmin edəcək səviyyədə satış həcminin müəyyən edilməsinə xüsusi diqqət yetirilir. Əslində rəqabət şəraitində istehsalın səmərəliliyinin yüksəldilməsi ilə gəlirliliyin artırılması subyektlərin prioritet məqsədi kimi çıxış edir. Bu çərçivədə uzunmüddətli perspektivdə rəqabətqabiliyyətliliyin əsas amili istehsalın təşkilində innovativ və texnoloji dəyişikliklərdən istifadədir.

Subyektlərin rəqabət qabiliyyətinin artırılması istiqamətlərinin növbəti amili istehsal olunan məhsulların daim yenilənməsi, onların strukturunun təkmilləşdirilməsi, istehsalda istifadə olunan resursların optimallaşdırılması və şaxələndirilməsidir. Rəqabət qabiliyyəti istehsalın bu şərti miqyas iqtisadiyyatı ilə bağlıdır. Bu imkanın reallaşdırılması üçün subyektlər tərəfindən innovativ inkişafa investisiyaların artırmasına, əmək resurslarını yenidən təşkilinə və təmərküzləşmyə xüsusi diqqət yetirilməsi vacibdir. İstehsalın təmərküzləşməsi innovativ inkişafın səmərəliliyə təsirini innovasiyaların özünün istehsala təsirindən ayrılıqda təsəvvür etmək olmaz. Əslində subyektlərin rəqabət qabiliyyətinin artırılması üçün istehsalın iqtisadi yüksəldilməsi vacibdir.

Subyektlərin rəqabət qabiliyyətinin artırılmasının digər mühüm istiqaməti məhsulun keyfiyyətinin yüksəldilməsi ilə bağlıdır. Elmi-texniki tərəqqinin tətbiqi ilə məhsulun keyfiyyətinin yüksəldilməsi

yeni bazarların inkişafına, ixracın həcminin artırılmasına ciddi təsirini göstərir. Məhsulun keyfiyyəti istehlakçılar arasında subyektlərin imicini yüksəltməyə, xarici bazara çıxışını asanlışdırmağa və maksimum mənfəət əldə etməyə şərait yaradır.

Xərclərin azaldılması rəqabət üstünlüyünün əsas elementlərindən hesab olunur. Bu istiqamətdə nəzərdə tutlan tədbirlərin həyata keçirilməsi istehsal texnologiyalarının, maddi-texniki bazanın və elmi-tədqiqat fəaliyyətinin, kadrların idarə edilməsini işinin təkmilləşdirilməsini tələb edir.

Beləliklə, rəqabətqabiliyyətlilik, iqtisadiyyatın idarə olunması sisteminin bütün mərhələlərdə əsas sahələrin və subyektlərin iqtisadi inkişafının strateji məqsədlərinin həyata keçirilməsini təmin edən əsas istiqamət olaraq qalır.

İqtisadiyyatın, onun sahələrinin və subyektlərin inkişafında dayınıqlığa nail olunması, eləcə də struktur dəyişikliklərinin həyata keçirilməsi və istehsaln şaxələndirilməsi, ilk növbədə iqtisadi proseslərdə innovasiyaların rolunun artması, innovasiyaların ümumi inkişaf sürətinə, istiqamətlərinə və mexanizmlərinə təsiri məsələlərini əhatə edir. Bu, özünü əsasən elmə qoyulan investisiyaların, təşkilati və texnoloji yeniliklərin artmasında, yüksək texnologiyalı istehsal sahələrinin inkişaf dinamikasında, yeni fəaliyyət növlərinin meydana çıxmasında özünü göstərir.

İqtisadi fəaliyyət sahələrinin və subyektlərin rəqabət qabiliyyətli və davamlı inkişaf modelinin formalaşdırılması dövlətin iqtisadi siyasətinin prioritetlərindən hesab olunur. Bu baxımdan daha optimal strategiyanın müəyyən edilməsi təbii-coğrafi şərait, daxili bazarın tutumu, müxtəlif fəaliyyət sahələrində çalışanların ixtisas səviyyəsi, təbii ehtiyatların mövcudluğu, xarici ticarətin intensivliyi, beynəlxalq əmək bölgüsündə dövlətin iştirakı kimi mühüm məsələlərlə bağlıdır.

Beləliklə, iqtisadiyyatın və onun sahələrinin tələb olunan rəqabət qabiliyyətinə nail olunması, daxili bazarda rəqabət mexanizminin səmərəliliyini təmin edən istehsalın elmi tutumunun intensivlik səviyyəsinin artırılmasını tələb edir. İqtisadiyyatın özünütəminetmə qabiliyyətinin formalaşması əsasında rəqabət qabiliyyətinin yüksəldilməsinin dəstəklənməsi istiqamətləri kimi aşağıdakıları vurğulamaq olar:

- sabit iqtisadi artımın təmin edilməsi üçün zəmin yarada bilən iqtisadiyyatın dəstəkləyici sahələrinə və onların fəaliyyət istiqamətlərinin seçilməsinə zəruri dəstəyin göstərilməsi;

- resurs potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi;

- iqtisadi subyektlərin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və s.

Müasir iqtisadi şəraitdə subyektlərin elmi və innovativ fəaliyyətinə dövlətin təsir üsulları fərqlidir. Onların sırasında elmi-tədqiqat və innovasiya fəaliyyətinin intensivləşdirilməsi və nəticələrinin istehsalata tətbiqi, həmçinin qabaqcıl texnika və texnologiyaların yayılması üçün stimullaşdırıcı mexanizmlərin istifadəsi iqtisadiyyatın innovativ inkişafı prosesində aparıcı rol oynayır. Beləliklə, iqtisadiyyatın rəqabət qabiliyyətinin inkişafı üçün qeyd olunan istiqamətlərin həyata keçirilməsi sabit iqtisadi artımın başlıca şərtləri hesab oluna bilər.

## NƏTİCƏ

İqtisadiyyatın müxtəlif sferalarında fəaliyyət göstərən subyektlərin rəqabətə davamlığının təmin olunması və bu prosesdə innovasiyaların rolunun araşdırılması bir sıra ümumiləşdirilmiş nəticələr çıxarmağa imkan verir. İlk növbədə qeyd etmək olar ki, iqtisadiyyatın, onun sahələrinin və subyektlərin rəqabət qabiliyyətli və innovativ inkişaf problemləri bununla bağlı yeni mənbələrinin axtarışını, ölkənin elmi potensialından istifadə etmək üçün əsaslandırılmış mexanizmlərin yaradılması zərurətini önə çəkir. Eyni zamanda iqtisadiyyatının innovativ yenilənməsi hesabına rəqabətə davamlığının yüksəldilməsi strategiyasının inkişaf etdirilməsi elmin, yeni texnologiyaların, bilik tutumlu sahələrin və subyektlərin fəaliyyətinin əlaqələndirilməs zərurətini ortaya qoyur. Beləliklə, hazırda sosial-iqtisadi həyatın bütün sahələrində və səviyyələrində innovativ fəaliyyət təkcə sabit inkişafı deyil, həmçinin ölkənin dünya iqtisadiyyatında yer tutmasını və onun möhkəmləndirilməsini təmin etmək məqsədi ilə yüksək rəqabət qabiliyyətli sahələrin və subyektlərin fəaliyyətində dayanıqlılığı təmin etməkdir. Göstərilənlərə əsaslanaraq iqtisadiyyatın, onun sferalarının və

iqtisadi subyektlərin rəqabətə davamlığının təmin olunması, eləcə də rəqabət qabiliyyətli subyektlərin fəaliyyətində innovasiyaların tətbiqi perspektivlərinin müəyyən edilməsi ilə bağlı aşağıdakı tədbirlərin məqsədəuyğunluğunu qeyd etmək olar:

1. İqtisadiyyatın və onun subyektlərinin elmi-texniki yeniliklərdən istifadə etmək qabiliyyəti onun innovativ potensialının başlıca xüsusiyyəti olmaqla istehsal prosesində innovativ fəaliyyətin əsas istiqamətlərini müəyyən edir. Bu baxımdan müasir innovativ həllərdən istifadənin təmin olunması, o cümlədən alternativ innovativ layihələrin həyata keçirilməsi, yeniliyin yayılma miqyasının genişləndirilməsi, elmi, texniki və texnoloji yeniliklərin nəticələrinin istehsalata tətbiqinin reallaşdırılması ən mühüm istiqamətlər kimi özünü göstərir.

2. İqtisadi subyektlərin fəaliyyətində innovativ potensialdan istifadənin genişləndirilməsi rəqabət strategiyasından bilavasitə asılıdır. Bu strategiya iqtisadi potensialın maksimum istifadə edilməsi əsasında aşağıdakı istiqamətləri müəyyən edir: rəqabət qabiliyyətli məhsul istehsalının artırılması prioritetlərinin müəyyən edilməsi; subyektlərin rəqabətə dayanıqlılığının təmin olunması və innovativ inkişaf mexanizminin formalaşdırılması; yeni texnologiyaların istehsalata tətbiqini həyata keçirmək qabiliyyətinin inkişaf etdirilməsi, texnoloji və intellektual potensialdan səmərəli istifadə, innovasiya prosesinin idarə edilməsinin elmi əsaslarının möhkəmləndirilməsi və s.

3. Hazırda dünya iqtisadiyyatında baş verən dəyişikliklər fonunda iqtisadiyyatın və onun subyektlərinin innovativ potensialının formalaşması və səmərəli istifadəsi praktiki baxımdan ən əhəmiyyətli məsələlərdən birinə çevrilmişdir. Resurs və innovasiya potensialının səmərəli şəkildə istifadə edilməsinin əsas prinsiplərindən biri onların innovasiya prosesindəki rolu ilə bağlıdır. Resurs potensialı kadr, texniki-texnoloji, informasiya, təşkilati, maliyyə komponentləri kimi elementləri özündə birləşdirdiyindən ayrı-ayrı subyektlərin və bütövlükdə iqtisadiyyatın sahələrinin innovativ potensialının istifadəsi prosesində resurs komponentlərinin inkişaf etdirilməsi və səmərli şəkildə istifadəsi zəruridir.

4. İqtisadi fəaliyyət sahələrinin və onun subyektlrinin inkişafı üçün prioritet məsələlərdən biri istehsal olunan məhsulların əlavə

dəyərinin artması ilə rəqabət qabiliyyətinin yüksəldilməsidir. Sahibkarlıq subyektlərinin timsalında hesablamalar göstərir ki, əlavə dəyərin yaradılması fərqli amillərin təsiri ilə formalaşır (subyektlərin və işçilərin sayı, əmək haqqının səviyyəsi kimi amillərdən asılılıq 91,9% təşkil edir). Ona görə bu vəzifənin yerinə yetirilməsi innovasiya fəaliyyətinin ənənəvi və yeni yanaşmaları vasitəsilə mümkündür. Ənənəvi yanaşma fundamental tədqiqatların tətbiqi inkişafa, həmçinin istehsala və kommersiyalaşdırmaya yönləndirilməsini nəzərdə tutur. Əslində yeniliklər elmi-tədqiqat fəaliyyətlərinin nəticələrinə əsaslandığından innovasiya prosesinin ilkin mərhələlərində yüksək ixtisaslı mütəxəssislərin cəlb olunması zərurəti yaranır. Müasir yanaşmaya əsasən innovativ ideyaların istehsalı və kommersiyalaşdırılması daxil olmaqla, innovasiya dövrünün bütün mərhələlərində fundamental tədqiqatların nəticələrinin innovasiya dövrünün bütün mərhələlərində istifadəsi tələb olunur. Ona görə hər iki yanaşmanın əlaqələndirilməsi hesabına məhsul istehsalında əlavə dəyər yaratmaq, bununla da subyektlərin rəqabətə davamlığını yüksəltmək olar.

5. İnnovasiya sferasının fəaliyyət xüsusiyyətlərinin öyrənilməsi, həmçinin subyektlər arasında iqtisadi əlaqələrin inkişaf meyilləri göstərir ki, bu sahədə mühüm tendensiya xarci iqtisadi əlaqələrdə məhsulların, iş və xidmətlərin, kapitalın və işçi qüvvəsinin hərəkəti ilə bağlıdır. Bu tendensiya innovasiyaların istehsalata tətbiqində yeni tələblər yaradır. Məlumdur ki, ölkənin iqtisadi potensialının yalnız müəyyən hissəsi beynəlxalq əmək bölgüsündə iştirak edir. Dünya iqtisadiyyatının inkişaf tendensiyaları isə xammalın hazır məhsula çevrilməklə ixracını şərtləndirir. Bu, iqtisadiyyatın və onun sahələrinin, həmçinin ixrac yönümlü fəaliyyət göstərərən subyektlərin dünya əmtəə bazarlarında mövqeyini möhkəmlətmək, məhsulların, iş və xidmətlərin, kapitalın və işçi qüvvəsinin dövriyyəsində səmərəliliyi təmin etmək üçün innovasiyalardan istifadənin stimullaşdırılması tədbirlərinin tətbiqini nəzərdə tutur.

6. İnnovativ texnologiyaların yaradılmasının və əldə edilməsinin maliyyətləşdirilməsi rəqabətqabiliyyətli sahələrin inkişafının stimullaşdırmaqda mühüm rol oynaya bilər. İnnovasiya fəaliyyətinin maliyyələşdirilməsi sistemi spesifik funksional xüsusiyyətlərə malik

bir-biri ilə əlaqəli aşağıdakı elementləri əhatə edir: innovasiya fəaliyyətinin maliyyələşdirilməsi prosesi; müxtəlif mənbələrdən əldə olunan vəsaitlərin toplanması mexanizmi; investisiyalara nəzarət mexanizmi; innovasiya proseslərinə vəsait qoyuluşlarının qaytarılması mexanizmi və s. İnnovasiya fəaliyyətinin maliyyələşdirilməsi bütövlükdə innovasiya prosesinin müxtəlif sahələrini və ayrı-ayrı subyektlərinin fəaliyyətini əhatə edir. İnnovativ layihələrin həyata keçirilməsindən əldə edilən gəlirlərin səviyyəsi subyektlərin innovativ fəaliyyətinin yekun nəticələrini və dövlətin maliyyə siyasətinin səmərəliliyini müəyyən edilir. Ona görə innovasiya fəaliyyətinə xidmət edən dövlət maliyyəsindən, kredit kapitalından, qiymətli kağızlara qoyulan investisiyalardan, xarici kapital və subyektlərin daxili kapitalından effektiv şəkildə istifadə ən aktual məsələlərdən biri kimi qəbul edilir.

7. İnnovasiya siyasətində elmin dövlət tərəfindən maliyyələşdirilməsi və maliyyə resurslarının səmərəli istifadəsi üçün əlverişli şəraitin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Elmi fəaliyyətin maliyyələşdirilməsinin nəticələri istehsalın rəqabət qabiliyyətinin formalaşması üçün əsas istiqamətlərdən olub subyektlərin texnoloji üstünlüklərinin təmin edilməsi üçün əlverişli zəmin yaradır. Məlumdur ki, fundamental elm sahələri bir çox cəhətdən tətbiqi elmlərin tələblərindən və fəaliyyəti ilə bağlı gələn çağırışlara cavab olaraq inkişaf edir. Buna baxmayaraq araşdırmalar göstərir ki, son 5 ildə elmə çəkilən xərclərin ümumi daxili məhsulada payı 0,18-0,23%, dövlət büdcəsi xərclərində 0,6-1,35% aralığında dəyişir və bu, olduqca aşağı göstəricidir. Ona görə tətbiqi tədqiqatları stimullaşdıraraq fundamental elmlərə dəstək baxımından son dərəcədə əhəmiyyətlidir. Qeyd edilənlər onu göstərir ki, elmi fəaliyyət sahələrinə büdcədən ayrılan vəsaitlərin həcminin artırılması innovasiyaların yaradılması və istehsalata tətbiqinin stimullaşdırılmasında ən mühüm istiqamətlərdəndir.

8. Dövlət innovasiya siyasətində kreditlərdən istifadə xüsusi yer tutur. Bununla bağlı aşağıdakı istiqamətlərə diqqət yetirlməsi vacibdir: kredit təşkilatlarının innovasiya sektoruna marağının artırılması; innovativ layihələr həyata keçirən subyektlərə kredit faizlərinin əhəmiyyətli dərəcədə azaldılması; innovativ layihələrinə

kredit verən bankları üçün güzəştlərin tətbiqi, o cümlədən məcburi ehtiyatların həcminin azaldılması; faizsiz kreditləşmə yolu ilə banklardan alınan kreditlərin vaxtında qaytarılmasına, o cümlədən bu kreditlərin müddətinin uzadılmasına zəmanətin verilməsi; banklar tərəfindən innovativ proseslərə kredit vermək üçün daha aşağı faiz dərəcələri ilə məqsədli resurslar təqdim olunması və s.

9. İnnovativ və rəqabət qabiliyyətli inkişafın əsas qanunauyğunluqları iqtisadi siyasətin prioritetlərinin reallaşdırılmasında aşağıdakı alətlərin istifadəsinə diqqət çəkməyi tələb edir: yerli istehsalçıların idxal məhsullarının rəqabətindən və zərərli təsirlərindən qorunması, yüksək keyfiyyətli və rəqabət qabiliyyətli məhsullara dövlət sifarişinin həyata keçirilməsi, subsidiyalar və ya valyuta tənzimləmələri vasitəsilə ixracın stimullaşdırılması və s.

10. Rəqabət qabiliyyətli istehsalın inkişafı aşağıdakı istiqamətlərlə bağlıdır: xammal məhsullarının emalının təmin edilməsi və innovasiya fəaliyyətinin idarə edilməsi mexanizminin formalaşdırılması; elm tutumlu sahələrin inkişafı üçün iqtisadi fəaliyyət sahələrini şaxələndirməklə istehsalın təşkilinin yeni formalarından istifadə; innovasiya infrastrukturunun idarə edilməsinin daha təkmil təşkilati-iqtisadi mexanizminin formalaşdırılması; rəqabət qabiliyyətlilik baxımından yüksək potensiala malik, həmçinin bilik tutumlu sahələrə investisiyaların yönəldilməsi üçün zəruri şəraitiin təmin edilməsi; innovativ fəallığı artırmağa imkan verən ixtisaslaşdırılmış infrastruktur subyektləri kompleksinin formalaşdırılması və s.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalələri və tezisləri dərc edilmişdir.**

1. Sultanova G.G. İqtisadi subyektlərin rəqabətə davamlılığının təmin olunması mexanizmi // – Gəncə: "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı, 2021. № 1/5. – s. 51-57.

2. Султанова Г.Г. Особенности внедрения инноваций в конкурентной устойчивости экономических субъектов // – Москва: Журнал "Экономика и редпринимательство", 2022. № 11 (148). – стр. 1065-1068.

3. Sultanova G.G. İqtisadi subyektlərin rəqabətliliyi, onun yüksəldilməsinin zəruriliyi // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri jurnalı, 2023, İl 11, Cild 11. – s.119-125

4. Sultanova G.G. Rəqabət qabiliyyətli iqtisadi subyektlərə dövlət dəstəyinin prioritetləri // – Baku: 7 International Congress on scientific research Mingachevir State University, – 24-25.02.2023, Vol.1. – pp. 95-98.

5. Султанова Г.Г. Влияние цифровизации на устойчивость конкурентного преимущества компаний // – Gəncə: "Dördüncü sənaye inqilabı və innovativ texnologiyalar" Beynəlxalq elmi-praktik konfrans, 3-4 may 2023, 3-cü hissə. – s. 222-223.

6. Sultanova G.G., Mehdiyeva I.Kh. The role of advanced technologies in ensuring the competitiveness of enterprises // – Ganja: 2nd International Conference on Engineering Sciences, 21-22.09.2023. – pp. 597-601.

7. Султанова Г.Г. Критерии оценки потенциала конкурентоспособности экономических субъектов //– Москва: IV международный Косыгинский форум "Проблемы инженерных наук: Формирование технологического суверенитета", 20-22 фев., 2024. – стр. 265-272.

8. Sultanova G.G., Həsənova P.Ə. Azərbaycanda bank sektorunun rəqabət qabiliyyətliliyinin əsas parametrləri və innovasiyalardan asılılığı // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnal, 2024. № 2 (73). – s. 81-88.

9. Султанова Г.Г., Маммадов Ф.А. Конкуренция как механизм обеспечения устойчивости экономических субъектов // – Москва: Журнал "Экономика и предпринимательство", 2025. № 2 (175). – стр. 1405-1409.

10. Sultanova G.G., Khan-Khoyskaya I.V., Hasanova P.A. Analysis and assessment of competitiveness of entrepreneurial structures in Azerbaijan // – Белгород: Журнал "Прогрессивная экономика", 2025. № 4. – pp. 139-158.

Dissertasiyanın müdafiəsi 24 iyun 2026-cı il tarixdə, saat $14^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç. 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.05.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46133 işarə

Tiraj: 100